UOT-811.512.162
Səhifə: 131-136
https://doi.org/10.59849/2663-8967.2026.2.131

Vəfa İsmayılova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
ivafa65@mail.ru

RADİOLARIN DİLİNDƏ LEKSİK-ÜSLUBİ XƏTALAR

XÜLASƏ

Müasir dövrdə informasiya vasitələri arasında xüsusi yer tutan radio öz operativliyi, çevikliyi və auditoriya ilə birbaşa ünsiyyət qurmaq imkanları ilə seçilir. Radio dili müasir Azərbaycan ədəbi dilinin inkişaf xüsusiyyətlərini də ehtiva etdiyindən onun dili üzərində aparılan araşdırmalar dilin leksik-üslubi qatında gedən prosesləri yaxından izləmək imkanı verir. Məqalədə radio dilindən qeydə alınan leksik-üslubi xətalar qruplaşdırılır, aparıcı və ekspertlərin dilindən qeydə alınmış nümunələr əsasında təhlil edilir.

Açar sözlər: *kütləvi informasiya vasitələri, radioların dili, ədəbi dil normaları, leksik-üslubi xətalar.*

Giriş: Texnologiya sürətlə inkişaf etsə də, radio informasiya mübadiləsinin əsas vasitələrindən biri kimi bu gün də aktuallığını qoruyub saxlayır. Yeni danışıq üslubunun yaranmasında radionun inkişafı mühüm rol oynamışdır. Radio həm də müasir Azərbaycan ədəbi dilini təbliğ edən media vasitəsidir. Bu baxımdan radio dilində əksini tapan publisistik üslub düzgün danışmağın, səlis nitqin şifahi göstəricisi olmalıdır.

Radio dili şifahi nitq prinsiplərinə əsaslanır və bu xüsusiyyət onun leksik və üslubi quruluşuna birbaşa təsir göstərir. Məlumdur ki, şifahi dil də yazılı dil kimi ədəbi dil sayılır və ədəbi dilin normalarına tabe olaraq onun bütün tələblərinə cavab verir. Şifahi ədəbi dil danışıq dili olduğundan bəzi leksik xüsusiyyətlərinə görə yazılı ədəbi dildən fərqlənir. Dilin canlı ünsiyyət vasitəsi rolunu oynaması məhz burada özünü daha qabarıq şəkildə büruzə verir. Müşahidələrimiz göstərir ki, bu gün media resurslarının, eləcə də onun xüsusi tərkib hissəsi olan radionun dilində dilimizin üslubi imkanlarından yetərincə istifadə edilmir, bəzi aparıcıların nitqində müşahidə olunan lüğət kasadlığı yanlış formaların işlədilməsinə səbəb olur. Nəzərə alsaq ki, radio çoxsaylı tamaşaçı ilə effektiv əks-əlaqə imkanına malikdir, deməli, efir məkanında bu cür norma pozuntuları yolverilməzdir.

Dildə hər bir söz leksik-semantik paradiqmanın bir üzvüdür, onun məna əlaqələri təsəvvür dairəmizlə şərtləşir. *"Leksikada sözün mənalandırılması, üslubiyyatda isə seçilməsi əsasdır. Hər əsas sözün leksik mənası var. Söz mətndə məhz bu mənasına uyğun işlədilməlidir. Nitqin düzgünlüyü, səlisliyi təkcə sözün mənasını yerli-yerindəki işlədilməsindən yox, həm də leksik birləşmədən də asılıdır"* [3, s. 13].

Məlumdur ki, lüğət tərkibini təşkil edən sözlər faktların təfəkkür obyektinə çevrilməsində mühüm rol oynayır. Fikrin düzgün anlaşılması üçün qaydalar müstəvisində münasib söz tapmaq vacibdir. Sözlərin düzgün seçilməsi, yerində işlədilməsi leksik normanın əsas tələblərindəndir. İstər şifahi nitqdə, istərsə də yazı işlərində sözün mənasını bilmək, ondan düzgün istifadə etmək düzgün nitqi formalaşdıran başlıca amillərdəndir. Lakin radio kanallarının dilindən aşkar etdiyimiz aşağıdakı nümunələrdə sözügedən tələblərin tam əksini görürük:

"Retro ritm" – 19.09.2024 – 14:25:25 – aparıcı – Dünya *musiqisində (musiqisinə)* əbədi olaraq adını yazdırmağı **bilmişdir (bacarmışdır)** [105.0 FM].

"Gəl, səhərim" – 03.10.2024 – 08:49:57 – aparıcı – Kinoteatrda filmə baxmağın ayrı bir **zövqü (ləzzəti)** var [105.0 FM].

"Gəl, səhərim" – 14.10.2024 – 09:10:25 – aparıcı – Amma məlumatı mən oxuyan zaman orada görmədim ki, həyat yoldaşı üçün bunu icad edib, daha səmimi olsam, bilmirəm, indi burada istəyirsən, xanımları bir növ mühafizə (müdafiə) eləyəsən [105.0 FM].

"Gəl, səhərim" – 15.10.2024 – 09:15:28 – ekspert – Kimlər həyatda baş verən proseduralara (proseslərə) necə baxır [105.0 FM].

Göründüyü kimi, yerində işlədilməyən söz və ifadələr leksik normanın tələblərini pozmaqla yanaşı, cümlənin ümumi məzmununa da xələl gətirir. Sözlərin yerinə görə işlədilməsi, ifadə və məzmun paralelliyinin gözlənilməsi, dilin lüğət tərkibindəki daimi dəyişikliklərin dinamikasından düzgün istifadə olunması bu prosesi tənzimləyən əsas faktorlardır. *"Dilin lüğət tərkibini təşkil edən leksik vahidlərin yazılışı Orfoqrafiya normaları ilə nizama salınırsa, sözlərin semantik tutumu ədəbi dilin leksik norması ilə tənzimlənir. Leksik norma hər kəsdən sözün mənasını dəqiq bilməyi, ondan yerində və düzgün istifadə etməyi tələb edir. Belə ki, leksik vahidlərin semantikasına uyğun olmayan mənada işlədilməsi, lüzumsuz şəkildə mətnə daxil edilməsi nitq nöqsanıdır. Söz onun üçün xarakterik olan mənada işlənmirsə, demək, fikir düzgün anlaşılmayacaq, ünsiyyət üçün yararlı olmayacaqdır"* [2, s.164-165].

Son dövrlər media dilində müşahidə olunan ən narahatedici xətalar dilimizdə qarşılığı olduğu halda yersiz işlədilən əcnəbi söz və ifadələrlə bağlıdır. Lüğət tərkibinin mütəmadi dəyişməsi leksik normanın şərtlərində müəyyən dəyişikliklərə səbəb olsa da, əcnəbi sözlərin istifadəsi məsələsində diqqətli olmaq mütləqdir. Söz və ifadənin dildə işlək qarşılığı varsa, ehtiyac duyulmadan işlədilən əcnəbi söz normanı pozacaqdır. Doğrudur, bu gün radio verilişlərində leksik-üslubi normaların pozulması müxtəlif formalarda özünü göstərir, lakin bunun ən qabarıq təzahürü əcnəbi sözlərdən düzgün olmayan şəkildə istifadədə nəzərə çarpır. Araşdırmalar zamanı radio aparıcılarının nitqində yüzlərlə rus, ingilis, türk dillərinə məxsus bu kimi söz və ifadələr müşahidə etdik:

"Yaşıl işıq" – 14.11.24. – 08.16.53 – aparıcı – Bundan başqa, **svetaforda (işıqforda)** da çalışın, evakuatorun arxasında dayanmayın [107.0 FM].

"Səhər şousu" – 14.11.24. – 08.35.35 – aparıcı – Amma 24 saat **rul (sükan)** arxasında olmaq – bu sizin sağlamlığınız üçün də, iş üçün də düzgün bir şey deyil axı [103.3 FM].

"Manpası" səhər şousu – 24.09.2024 – 08:17:10 – aparıcı – Yeddi **paçka (qutu)** dərman idi [90 FM].

"Manpası" səhər şousu – 02.10.2024 – 08:56:58 – aparıcı – 2013-cü ildən balaca maşın sürürdüm də, qardaş, yəni məni, az qala, **rajok (dabankeş)** əvəzi işlədirdilər yolda [90 FM].

"Gəl, səhərim" – 14.10.2024 – 09:51:23 – aparıcı – Bu siyahıya mən taksi **şoferlərini (sürücülərini)** də əlavə etmək istəyirəm [105.0 FM].

Məlumdur ki, media cəmiyyətin müəyyən mənada güzgüsüdür və xalqın dilinə və mədəniyyətinə verdiyi qiymət, ona göstərdiyi münasibət də həmin güzgüdən görünür. Özünü ilk olaraq mediada göstərən alınma sözlər dilin lüğət tərkibinin zənginləşməsində mühüm əhəmiyyət kəsb edir. Bütün dillərin lüğət tərkibində müəyyən məqsəd daşıyan alınma sözlər var. Zərurətdən yarandığı təqdirdə bu, dildə təbii bir prosesdir. Lakin zaman-zaman dilə ehtiyac olmadan çoxlu sayda leksik vahidlər daxil olur. Bu isə yolverilməz olmaqla yanaşı, vaxt ötdükcə dilin lüğət tərkibində düzgün istifadə prosesinə manea yaradır.

Hər bir dilin lüğət tərkibi alınma sözlərin hesabına zənginləşir və eyni zamanda onlar bu dilin normalarına uyğunlaşdırılır. Həmin proses hər bir dildə müxtəlif cür baş verir. Alınma sözlərin zamanla ədəbi dil normalarına uyğunlaşdırılma prosesi gedir və ehtiyac duyulan söz dildə işləklik qazanır. Lakin bu kimi alınma sözləri lüzumsuz yerə işlədilən xarici kəlmələrlə qarışdırmaq olmaz. Azərbaycanda fəaliyyət göstərən müxtəlif radio kanallarında kifayət qədər bu tipli leksik norma pozuntuları aşkar olunmuşdur:

"Manpası" səhər şousu – 24.09.2024 – 08:26:28 – aparıcı – Daha bir **no neym** ulduz – Fərhad Kərimov [90 FM].

"Avtostop" – 24.09.2024 – 18:06:10 – aparıcı – Bütöv xətt var idi, **parkinqə (parklama yerinə)** girə bilmirdik, indi yenə bütöv xətt var, **parkinqdən** çıxa bilmirik [90 FM].

"Avtostop" – 19.09.2024 – 18:47:05 – aparıcı – Sən onun *CPS-ni* **treykinq eləyirsən** [90 FM].

"O başdan" − 03.12.2021 − 08:04:21 − aparıcı − **Vikend (həftəsonu)** yaxınlaşır, planlarınızı qurmusunuz artıq? [4, s.176]

Dil elementlərinin qanunauyğun toplusu Azərbaycan dilinin leksik sistemini təşkil edir. Leksik sistem həm lüğət vahidlərinin toplusu, həm də həmin vahidlərin qarşılıqlı əlaqələrini tənzimləyən sistem kimi xüsusi əhəmiyyət kəsb edir. Mahiyyətinə görə çoxşaxəli olan dilimizin söz ehtiyatı olduqca zəngindir. *"Dilin lüğətində daimi bir dəyişmə, artma və zənginləşmə prosesi gedir. Dilin lüğət tərkibi nə qədər zəngin olarsa, dil də bir o qədər zəngin olar. Bu cəhətdən müasir Azərbaycan ədəbi dili dünyanın zəngin dillərindən biri sayılır. Bu dilin lüğət tərkibi zəmanəmizin yüksək siyasi, fəlsəfi, elmi, ədəbi fikirlərinin ifadəsinə xidmət edə biləcək bir qüvvəyə malikdir"* [1, s.63]. Bu baxımdan əcnəbi söz və ifadələrin ehtiyac duyulmadan istifadəsi təəssüf doğurur:

"Gəl, səhərim" – 15.10.2024 – 09:16:31 – aparıcı – İnsanlar hansı an, hansı gün özlərini necə hiss edirlər, *bura* ***odaklansa*** **(köklənsələr)**, daha doğrusunu, daha gözəlini görmüş *olar* [105.0 FM].

"Radio körpü" – 19.11.2021 – 11:38:53 – aparıcı – Deyir ki, **komşun (qonşun)** pisdir, köç qurtar, dişin ağrıyır, *çek,* qurtar [4, s.159].

"O başdan" − 10.12.2021 − 08:18:13 − aparıcı − Hətta buna görə belə **partilər (şənliklər)** keçirilir [4, s.176].

"Radio doktor" – 24.11.2021 – 16:10:57 – aparıcı – Gəlin başlayaq gözün **gənəl (ümumi)** müayinəsindən [4, s.261].

Medianın aparıcı qollarından biri olan radioya cəmiyyət operativ və etibarlı informasiya mənbəyi, eyni zamanda xəbər daşıyıcısı kimi baxır. O, bir tərəfdən insanları maraqlandıran, narahat edən müxtəlif sahələrdən, problemlərdən söz açaraq onları məlumatlandırır, digər tərəfdən isə efirdən maraqlı ədəbi-bədii və musiqi proqramları səsləndirməklə onların zövqünü oxşayır. Nitq-üslub mədəniyyətinin tətbiq və təbliği məsələsində də radionun müstəsna rolu var. Məlumdur ki, radio dili dinləyici ilə birbaşa təmas yaradan sadə, anlaşıqlı və təsirli ünsiyyət vasitəsi kimi çıxış edir. Burada əsas məqsəd informasiyanın dinləyici tərəfindən tez və düzgün qavranılmasını təmin etməkdir. Bu baxımdan radio üslubunda əsasən sadə və ümumişlək sözlərə üstünlük verilir, mürəkkəb terminlər isə mümkün qədər izahlı və ya kontekstə uyğun şəkildə təqdim olunur.

Radio dili informasiyaötürmə vasitəsi olmaqla yanaşı, ictimai rəyin formalaşdırılmasında da xüsusi rol oynayır. Radio üslubunun məqsədi dinləyicidə verilən məlumata və onun doğru-düzgün olmasına inam yaratmaqdır. Beləliklə, radio dilinin leksik-üslubi xüsusiyyətlərinin öyrənilməsi müasir dilçilik və kommunikasiya nəzəriyyəsi baxımından da əhəmiyyətlidir. Şifahi media resursları, eləcə də radionun dili üzrə apardığımız müşahidələr şifahi nitqin funksionallığını daha dəqiq və dərindən anlamağa xidmət edir. Radio dili yazılı nitqdən canlılıq, operativlik, spontanlıq və b. xüsusiyyətlərinə görə fərqlənir. Qeyd etdiyimiz nəzəri fikirlər radio dilinin leksik və üslubi baxımdan spesifik xüsusiyyətlərə malik olduğunu göstərir. Lakin praktikada bu prinsiplərə hər zaman tam şəkildə riayət olunmur və nəticədə müxtəlif üslubi xarakterli qüsurlar meydana çıxır. Bu cür səhvlər informasiyanın aydın qavranılmasına mane olur, həmçinin nitqin təsir gücünü zəiflədir. Məhz buna görə də radio verilişlərində rast gəlinən üslub xətalarının konkret nümunələr əsasında təhlili xüsusi əhəmiyyət kəsb edir. Aşağıda radio dilində müşahidə olunan üslubi pozuntular real və ya tipik nümunələr əsasında qruplaşdırılmışdır:

1. yerində və düzgün işlədilməyən söz və ifadələr səbəbindən meydana çıxan üslub xətaları

"106 House" – 30.09.2024 – 20:18:57 – aparıcı – Ümumiyyətlə, mən insanların **yaş kateqoriyasını** heç vaxt **gözaltına almıram** [106.0 FM].

"Retro ritm" – 14.10.2024 – 14:15:29 – aparıcı – İki nəfərlik dəvətnamədir bu, istədiyiniz filmi, istədiyiniz seansda izləmək şansınız var, amma **keçid alaq (keçək)** mahnıya [105.0 FM].

"Gəl, səhərim" – 16.10.2024 – 09:57:40 – aparıcı – Deyirlər ki, artıq siz uşağın boynuna yük qoyursunuz: əgər sən **qiymətlərini (dərslərini)** yaxşı oxusan, əgər sən bu yarım ildə əlaçı olsan, səni bu cür mükafatlandıracağam [105.0 FM].

Nitq tarixi, maddi və s. amillərlə bağlıdır və dilin formalaşmasına birbaşa təsir edir. Dil sistemi isə nitqdəki təzahürlərə əsasən müəyyənləşir. Dildə olan hər bir məfhum əvvəlcə nitqdə olur: bütün nitq vahidləri zamanla dil faktına çevrilir, ünsiyyət prosesində mühüm rol oynayır. Müxtəlif əlamətlərin məcmusu olan sözlərin semantik strukturu müəyyənləşir, forma və məzmunca söz qruplarına ayrılır. Bu vahidlər xüsusi məna bildirir və ya onun ifadə edilməsi və fərqlənməsində iştirak edir, müəyyən səviyyə formalaşdırır və bu səviyyə daxilində dilin ümumi sisteminə – nitqə daxil olur.

Nəzərə almaq lazımdır ki, bütün leksik vahidlərin özünə xas olan semantik və üslubi keyfiyyətləri, mənası və işlədilmə yeri var. Dilin leksik vahidləri istifadə yerinə və əhatəsinə görə normaya uyğun işlədilməlidir.

2. buraxılan söz və ya ifadələr səbəbindən meydana çıxan üslub xətaları

"Can, Azərbaycan" – 29.09.2021 – 15:05:49 – aparıcı – Hər bahar qayıdanda durnalar əvvəlcə gəlir, sonra payız gəlir və payızda durnalar **(söz və ya ifadə buraxılıb)** tərk edirlər [90 FM].

"Xəbərlər" – 08.12.2021 – 14:07:25 – aparıcı – Təhlükəsizlik **("orqanlarının" sözü buraxılıb)** əməkdaşları deputatları binadan çıxararaq vəziyyəti stabilləşdirməyə çalışıblar [4, s.65].

"Manpası" səhər şousu – 19.11.2021 – 08:21:10 – aparıcı – Amma bir məsələ də var ki, Səmra qarajı olan adamlar üçün dünən hava **("haqqında məlumatı" ifadəsi buraxılıb)** oxuyurdu [4, s.134].

"Sahibkarlar klubu" – 25.11.2021 – 14:07:10 – aparıcı – Amma əvvəlcə istəyirik, dinləyicilərimizə xatırladaq ki, mikrokreditlər **("dedikdə" sözü buraxılıb)** hansı kreditlərdən söhbət gedir [4, s.134].

Norma üslub nöqteyi-nəzərindən vəziyyət və şəraitlə əlaqədar olaraq söz və ifadələrdən düzgün istifadə etməkdir. Cümlənin üslubi baxımdan düzgün qurulması normanın vacib tələblərindəndir. Cümlədə artıq, izafi işlədilən hər hansı bir ifadə nə qədər qüsur sayılırsa, buraxılan ifadə də azı o qədər yanlışdır. Cümlədə buraxılan hər hansı bir nitq vahidi onun üslubuna xələl gətirməklə yanaşı, qrammatik quruluşuna da təsir edir, məzmununda natamamlıq yaradır.

3. izafi işlədilən söz və ya ifadələr səbəbindən meydana çıxan üslub xətaları

"İdarəetmənin əsasları" – 17.10.2024 – 13:09:14 – aparıcı – Siz **artıq** *(izafi söz)* "Yüksəliş" müsabiqəsinin qalibi olmağınızın belə hər hansı bir xeyrini görürsünüz həyatınızda? [90 FM]

"O başdan" – 09.10.2024 – 08:08:38 – aparıcı – Elektron poçtun yaranması bir qədər sanki ikinci plana **itələyib (izafi söz)** çıxartmışdır *poçtanı* [106.0 FM].

"Səhər şousu" – 14.11.24. – 08.31.03 – Endirimli qiymətlərlə alış-veriş edib büdcənizə **ekonom şəkildə (izafi ifadə)** qənaət etmək istəyirsinizsə, o zaman evinizə yaxın olan "Al market"i seçin [103.3 FM].

Düzgün nitqə yiyələnmək üçün qrammatik qaydaları bilməklə yanaşı, fikri aydın ifadə etmək də vacibdir. Bəzi media nümayəndələrinin nitqində üslubi ağırlıq müşahidə olunur ki, bu da daha çox cümlədə yersiz təkrarlara yol verilməsi, dilimizin zəngin lüğət ehtiyatından müvafiq söz və ifadələrin seçilməməsi, qrammatik qaydaların gözlənilməməsindən irəli gəlir. Nəticədə mənası ya tam, ya da qismən anlaşılmayan qarışıq cümlə tipləri meydana gəlir.

4. qarışıq tipli və məzmunlu cümlələr səbəbindən meydana çıxan üslub xətaları

"Avtostop" – 17.09.2024 – 18:05:14 – aparıcı – Yəni, belə götürək də, bizim şəhərimizin tıxac yaratmaq kimi bir xasiyyəti var. Bu xasiyyəti tərgitmək üçün birinci nədən başlamaq lazımdır? [90 FM]

"İdarəetmənin əsasları" – 16.09.2024 – 13:20:23 – aparıcı – Karyera yetişdirmək tipli bu qurumlar universitetlərdə belə bir kabinetlərin olması bu bütün universitetlər üçün keçərlidir, yoxsa? [90 FM]

"106 House" – 30.09.2024 – 20:18:57 – aparıcı – Qəribədir ki, öncə, ümumiyyətlə, o çoxlarına gözəl görünmür, Sofiya Loren, hətta son dərəcə hündür, son dərəcə, belə desək, dilimizdə belə bir ifadə var, son dərəcə uzun, belə desək [106.0 FM].

"60 dəqiqə" – 17.09.2024 – 15:11:12 – aparıcı – Bakı Metropoliteni də qatarlararası intervalı 30 saniyədən bir edib. Bütün o **insan sıxlığını rahat şəkildə daşıya biliblər**. Dünən bir balaca çox sıxlıq var idi [105.0 FM].

"O başdan" – 09.10.2024 – 08:13:08 – aparıcı – Sən demə o qədər şirin orada, tərkibində məsələlər var imiş ki, heç lazım deyil ona müraciət etmək [106.0 FM].

Təhlillər göstərir ki, bəzi aparıcıların nitqində loru və tüfeyli sözlərdən, qeyri-etik ifadələrdən istifadə edilir. Dinləyici auditoriyasını nəzərə almadan efirə yaraşmayan söz və ifadələrdən istifadə olunması həm dilimizin saflığına xələl gətirir, həm də etik normalar çərçivəsini aşır.

5. efirə yaraşmayan qeyri-etik ifadələrin istifadə olunması səbəbindən meydana çıxan üslub xətaları

"Manpası" səhər şousu – 26.11.2021 – 08:01:00 – aparıcı – Hərəkətə keçin və **pulların dalına keçin** [4, s.139].

"Avtostop" – 01.10.2024 – 18:03:28 – aparıcı – Onlar, yəqin, belə fikirləşirlər də, necə gözəl oğlandır, gör mahnıya necə qulaq asır e, yuxarı səslə, pəh, qulaqları əla, bu qulağa ərə getmək olar [90 FM].

"Avtostop" – 01.10.2024 – 18:03:39 – aparıcı – Yəni sən qulağını niyə bu qədər zorlayasan ki və digər insanların niyə həyatının içərisinə oturasan ki?! [90 FM]

"İkibaşlı söhbət" – 23.11.2021 – 12:44:22 – aparıcı – İsgəndər, qarpızlandırım səni, əzizim? [4, s.273]

"İkibaşlı" – 09.12.2021 – 13:42:29 – qonaq – Əllə manevr eləyirsən ki, **çək sağa** da, görürsən, heç nə, **lom kimi baxır üzünə** [4, s.296].

Kütləvi media vasitələrindən biri olan radionun dilində bu kimi cümlələrdən nümayişkarcasına istifadə olunması ciddi nöqsandır.

Nəticə: Azərbaycan dili üslubi imkanlarına və funksional üslublarına görə olduqca zəngin bir dildir. Ədəbi dilin publisistik funksional üslubu bütün ictimai-siyasi məsələlər barədə məlumatların insanlar tərəfindən düzgün qəbul edilməsinə yönəlir, kütləvi kommunikasiyada mühüm yer tutur. Şifahi informasiya və ünsiyyət vasitəsi olan radio dili şifahi ədəbi dilimizdə reallaşır. Radio dili spesifik xüsusiyyətlərinə görə publisistik üslubun tətbiq olunduğu digər vasitələrdən fərqlənir. Radio kanallarının aparıcıları dövlət dilini mükəmməl bilməli, səlis nitqə malik olmalı və dil normalarına əməl etməlidirlər. Aparıcı, jurnalist və ya müxbir informasiyanı dinləyiciyə sadə, aydın, eyni zamanda ədəbi dil normalarına uyğun şəkildə çatdırmalıdır.

Dilçilikdə norma anlayışı bütün dil elementlərini əhatə edən və cəmiyyətin formalaşdırdığı tətbiq qaydasıdır. Norma dilə aid bütün qaydaları özündə birləşdirir və variantlar çoxluğuna qarşı çıxır. Onun ehtiva etdiyi qaydalar cəmiyyətin müəyyənləşdirdiyi dil qanunlarının qorunub saxlanmasına yönəlir. Unutmaq olmaz ki, efir məkanından səslənən nitq ümumi xarakterə malikdir və geniş ictimaiyyətə çatdırılır. Burada ədəbi dilin norma pozuntularına yol verilməməli, nitqin təsir gücünü artıran vasitələrdən yerində istifadə olunmalıdır.

Ədəbiyyat siyahısı

1. Cəfərov, S. Müasir Azərbaycan dili / – Bakı: Şərq-Qərb, – 2007. – 192s.
2. Əmirova, G. Açıq məkan reklamları: leksik norma və ondan sapma halları // Abbas Səhhət-150: "Vətəni sevməyən insan olmaz" Respublika elmi konfransının materialları, − Şamaxı: − 2024, − s.165-167.

3. Həsənov, H. Üslubiyyat və leksikologiya // − Bakı: Üslubiyyat məsələləri, − 1990 − s.13-17

4. Radioların dili monitorinq aynasında / baş red. S. Əliyeva. – Bakı: Elm və təhsil, – 2022. – 356 s.

Mənbələr:

1. İctimai Radio (90 FM)
2. Araz FM (103.3 FM)
3. Radio Respublika (105.0 FM)
4. Azad Azərbaycan Radiosu (106.0 FM)
5. Azad Azərbaycan Radiosu (106.3 FM)
6. Real Radio (107.0 FM)

Вафа Исмайлова

Лексико-стилистические ошибки в языке радио
Резюме

В современную эпоху радио занимает особое место среди средств массовой информации благодаря своей оперативности, мобильности и возможности непосредственного общения с аудиторией. Поскольку язык радио отражает особенности развития современного азербайджанского литературного языка, исследования в данной области позволяют проследить процессы, происходящие в его лексико-стилистической системе. В статье классифицируются лексико-стилистические ошибки, зафиксированные в речи радиоэфира, и анализируются на основе примеров из речи ведущих и экспертов.

Ключевые слова: *средства массовой информации, язык радио, нормы литературного языка, лексико-стилистические ошибки.*

Vafa Ismayılova

Lexical and stylistic errors in radio language
Abstract

In the modern era, radio occupies a distinctive position among mass media due to its promptness, flexibility, and ability to communicate directly with audiences. As the language of radio reflects the developmental characteristics of contemporary Azerbaijani literary language, research in this field provides valuable insights into the processes taking place within its lexical and stylistic structure. This article classifies lexical and stylistic errors identified in radio broadcasts and analyzes them based on examples recorded from the speech of radio hosts and experts.

Keywords: *mass media, radio language, literary language norms, lexical and stylistic errors.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor S.Əliyeva***
dosent G.Əmirova